

## HACIMƏMMƏD MƏMMƏDOV

*Hacıməmməd Mirzəməmməd oğlu Məmmədov 1950-ci ildə İsmayıllı rayonunun Pirəqanım kəndində anadan olub. Gəncə Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirib.*
*"Səndən artıq bir sevdiyim bəndə yox", "Ziya ocağı", "Həyata sığmayan ömür" kitablarının müəllifi, dilimiz və ədəbiyyatımız haqqında müxtəlif kitabların tərtibçisi, "Uğur yolları", "Eldən gedən oğul" kitablarının həmmüəllifidir.*
*"İsmayıllı Yazarları" ədəbi ictimai birliyinin üzvü, Kütləvi İnformasiya Vasitələri Həmkarlar İttifaqı Rəyasət Heyətinin "Qızıl qələm" mükafatı laureatıdır. "Qabaqcıl Təhsil İşçisi" döş nişanına və "Tərəqqi" medalına layiq görülüb.*
*86 saylı İsmayıllı Dairə Seçki Komissiyasında Ana Vətən Partiyasını təmsil edir.*

### Şəhidlərə

Ölüm öldürmədi, yaşatdı sizi,
Qəlbinə hopmusuz siz milyonların.
Unutmaz heç zaman sizi bu Vətən,
Açan güllərisiz gələn baharın.

Vətən torpağını qanla suvardız,
Dözməz əsarətə bu torpaq, bu daş.
Uyu məzarında, sən rahat uyu,
Oğullar alacaq qanını, qardaş.

Biz sizdən öyrəndik Vətən sevməyi,
Qələbə bizimdir, geci, tezi var.
Vətən yaşadıqca, el yaşadıqca,
Ölməzlik yaşayır şəhid olanlar.

### Qoruyun

*(Məktəbi bitirən şagirdlərimə)*

Kamil, pərvaz olub uçan balalar,
Ətrafa nur, şəfəq saçan balalar.
Ağ günə qapılar açan balalar,
Təmiz adı, saf niyyəti qoruyun!

Hərarəti tükənməyən köz olun,
Yaxşılara arxa durun, göz olun.
Dildə, sözdə, əqidədə düz olun,
Kökü olan hər adəti qoruyun!

Düşməyəsiz şərəfsizlər felinə,
Uymayasız hərcayılar dilinə.
Oğlanlar bəy, qızlar dönər gəlinə,
Ülvi, nəcib məhəbbəti qoruyun!

Süfrənizdə əl uzadın halala,
Can yandırın halal işə, amala.
Əl uzadıb, könül verib vüsala
Düz ilqarı, sədaqəti qoruyun!

Əziz bilin nəsib olan hər anı,
Yandırmayın eldən ötrü yananı.
Allah bilin yerdə ata-ananı,
Adil olun, ədaləti qoruyun!





Yaxşılara arxa durar haqq özü,
Günəş qədər nurlu olar haqq üzü.
Çəkinməyin, üzə deyin haqq sözü,
Müdrik olun, həqiqəti qoruyun!

Mən Hacıyam, bağda barım sizsiniz,
İnam yerim, iftixarım sizsiniz.
İlk şüarım, son qərarım sizsiniz,
Tarix olan hər söhbəti qoruyun!

### Anamın xatirəsinə

Qarşımda köhnəlmiş, küskün bir məzar,
Tarix oxunmasa, bilinməz yaşı.
Yanına nə gələn, nə də gedən var,
Əyilib, kiçilib çopur başdaşı.

Durmuşam önündə, nitqi, dili lal,
Donub, buza dönüb gözümdə yaş da.
Cınqır çəkməyə də yoxdur məndə hal,
Körpəyə dönmüşəm mən əlli yaşda.

Bu qədər doğmadır, əzizdir mənə,
Burda uyqudadır nakam bir gəlin.
Ay ana, gəlirəm, yetmirəm sənə,
Gözümün önündə böyük heykəlin.

Təzəcə yatırdı dilim adına,
Saçlarım görmədi ana sığalı...
Dünyada kamına çatsın hər ana,
Hər oğul yaşasın ana dualı.

### Kəndimin

Qışla vidalaşır, yaza gəl deyir,
Yorğandı torpağa qarı kəndimin.
Bahar öz ətrini səpəndə düzə,
Can atır gülünə arı kəndimin.

Müəllim adlanan oğlu, qızı var
Aşıq, şair adı burda iftixar.
Hamı işbacaran, hamı sənətkar
Şan-şöhrət olubdur varı kəndimin.

Laləli yamaclar görünəndə al,
Dağların başına dolanır qartal.
Sevib-sevilənı dindirir vüsal
Dillənir kamanı, tarı kəndimin.

Çempion balası - elin övladı,
Dadmışıq iftixar, qələbə adı.
Tarixə yazılan müqəddəs adı,
Yolu nurlu olsun barı kəndimin.

### Qardaşım

***Dəyərli ziyalımız - Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı İsmayıllı Rayon Komitəsinin sədri Hafiz Kərimovun 60 illiyinə***

Məsləkin, əqidən bəllidir bizə,
Ömrün altmışına yetən qardaşım.
Xoş yer soraqlayıb, xoş ünvan gəzib,
Duyan ürəklərdə bitən qardaşım.

Səninlə mənalı il olur anım,
Uğurlu sabaha artır gümanım.
Şirin dillərinə qurbandır canım,
Bülbüllər sayağı ötən qardaşım.

Ad-sana çevrilib ötən illərin,
Duyumu incəsən, zəkası dərin.
Gözəl arzuların, düz fikirlərin
İçində, qoynunda itən qardaşım.

Əməlin, amalın, niyyətin xeyir,
Çəmən gül donunu xətrinə geyir.
Adam tanıyıram, hey "mənəm" deyir,
Sənə ola bilməz o tən, qardaşım!

Hər yerdə öndəsən, aqil, ucasan,
Həyat qanad verə, quştək uçasan.
Sən Vətən yolunda əsl xocasan,
Başında tac olsun Vətən, qardaşım!

### Kiçilmək, böyümək

Udduğu havadan at zəhərlənir,
Kimsə eşşəyinə yəhər qoyanda.

Canıma od düşür, başım hərlənir,
Xırdalar özünü böyük sayanda.

Xırdalıq günahdır xırdalanançün,
Çoxları bu yolda dönüb qurbana.
Bazarda növbə var ucuz mal üçün,
Ucuz baxan yoxdur ucuz satana.

Xırdalıq edənin dərdi dağdı, dağ,
Kiçilib yaşamaq kişilik deyil.
Ağlı dayazlar da gəzdirir papaq,
Böyüyür, ad günü keçirir hər il.

Xırda çığırları udar böyük yol,
Xırda fikirlər var, böyüyə bilməz.
Boyu ilə seçilir ağac, pöhrə, kol
Boylar var ölçülməz, ölçüyə gəlməz.

Böyüklük könlümdən keçməyib bir an,
Kiçilmək dözülməz dərd olub mənə.
Düz sözü, haqq sözü soruş uşaqdan,
Mərdlik, düzlük nədi o deyər sənə.

## Alacağıq qisası

Şuşa, Laçın intizardan üzülüb,
Əsir sular gözlərimdə düzülüb.
Qara bəxtim Qarabağda yazılıb,
Qarabağsız qəlb dolusu gülmərəm,
Mən bu yurdu yada verə bilmərəm!

Orda Üzeyirin susur nəğməsi,
Bülbülün, Cabbarın batıb zil səsi.
Yox gülün torpağa könül verməsi,
Görüşünə gül-çiçəksiz gəlmərəm,
Mən bu yurdu yada verə bilmərəm.

Orda mənimkidir hər dərə, hər dağ,
Yolumu gözləyir öpdüyüm bulaq.
Şərəfdir bu yurdun sahibi olmaq
Qarabağsız rahat ola bilmərəm,
Mən bu yurdu yada verə bilmərəm.

Alacağıq yağılardan qisası,
Var arzumun yetişməyə əsası.
Hacı deyər, sözün uzun-qısası,
Torpağımın bir tikəsin bölmərəm,
Mən bu yurdu yada verə bilmərəm!

## Vətəndə sülh olarsa

Vətəndə sülh olarsa,
Qərənfil toya gedər.
Gül balalar elm alıb,
Ulduza, Aya gedər.

Qalxan bayrağım daha
Enməz vüqarım kimi.
Gələn, aydın sabaha,
Çatdırın bu səsimi.

Qara bulud çəkilər,
Qarabağın başından.
Güllər islanmaz daha
Gözlərimin yaşından.

Sülh olarsa, vətənin
Əsgəri bağban olar.
Üzü gülər yetənin,
Vətən gülüstan olar.

## Vətənim

Əzizsən anam qədər,
Eşqin açılan səhər.
Gül açan düşüncələr
Çölüm-çəmənim mənim.

Yağar yağışın, qarın,
Çiçək səpər baharın.
Örpəyidir dağların
Dumanım, çənim mənim.

Müqəddəs bir mənadır,
İlk mehrimiz onadır.
Mehriban bir anadır,
Doğma vətənim mənim.

## Qalacaq

El güzgüdür, yaddaşında
Göstərdiyin üz qalacaq.





Bu meydanda kişi kimi,
Qalib yenə düz qalacaq.

Haqq söndürən bir çırağı
Ha qurdala, yanmaz axı.
Əsilsizlər - yabı, yağı,
Əsillidən iz qalacaq.

Ay arxamca gülən harın,
Bəd niyyətdir arzuların.
Külü qalmaz qəlbidarın,
Məndən ocaq, köz qalacaq.

Sən yolunda düz, ay Hacı,
Hər əzaba döz, ay Hacı.
Gedəriyik biz, ay Hacı,
Qalsa, qalsa, söz qalacaq.

## Olmaz

Gəzər eli oymaq-oymaq,
Aşıq eldə naşı olmaz.
Adam var ki, qoyar papaq,
Şalvar geyər, kişi olmaz.

Vəfası yox bu dünyanın,
Adı qalıb bəyin, xanın.
Tikəsinə göz qoyanın
Yeyilməli aşı olmaz.

Çörəyində duz olanın,
El-obaya göz olanın,
İlqarında düz olanın
Qoltuğunda daşı olmaz.

Qədrini bil az ömrünün,
Kitabını yaz ömrünün.
Hacı, sənin yaz ömrünün
Qarı yoxdu, qışı olmaz.

## Qədər

Adam var ki, savad alıb,
Saya bilmir ona qədər.
Aldığımız maaşa bax,
Mən nə qədər, o nə qədər.

Daş götürən atasıdır,
Su yatağa yatasıdır.
Əcəl gəlib çatasıdır,
İşini gör ona qədər.

Kişi çörək, duz itirməz,
Rəngsaz olar, rəngə girməz.
Daş daşıyar, söz götürməz -
Mərddir Hacı sona qədər.

## Sevgi duyğuları

Getmisən, könlümün odu səngiyib,
Qayıtma, qayıtsan, alışacaqdır.
Öpüb-oxşadığım qara tellərin
Qarası ağına qarışacaqdır.

İşvə-nazı satan kimdi, alan kim?
Öz əhdində, ilqarında qalan kim?
Bu sevdada doğru kimdi, yalan kim,
Kimlərin ulduzu barışacaqdır?

Arzuyam, yuxuyam, nə bilim nəyəm,
Bəlkə də talesiz bir divanəyəm.
Sevirəm sözünə nida, nöqtəyəm,
Kim gəlib mənimlə yarışacaqdır?

## Ay bala

Səni dəfələrlə vurdum dişimə,
Ədəbdə, ərkanda boşsan, ay bala.
Üzündən oxunur ağlın, düşüncən,
Sən elə bilirsən, başsan, ay bala?

Əcəb meyillisən qala, qovğaya,
Aş nədir, layiqsən çürük dovğaya.
Tay tapa bilmirəm sən tək lovğaya,
Düşünə bilməyən daşsan, ay bala.

Salam verənlərin yoxdur əlacı,
Gülüşün, baxışın zəhərdən acı.
Sənə başqa şeir yazacaq Hacı,
Həddini bir az da aşsan, ay bala.